Təsdiq edirəm
ADMİU-nun rektoru
__________Professor Ceyran Mahmudova
“ 12 ” “ sentyabr ” 2025-ci il

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ**

ADMİU

# MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# T Ə H S İ L   P R O Q R A M I

**7003017 – Sənətşünaslıq ixtisasının**
**Təsviri sənət tarixi və nəzəriyyəsi ixtisaslaşması**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin
3-29/3-2-548F/2025/1 nömrəli 08.09.2025-ci il tarixli əmrinə əsasən
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Şurasının
12.09.2025-ci il tarixli iclasında (protokol №01) təsdiq edilmişdir.

**BAKI – 2025**

## 1. Ümumi müddəalar

1.1. Magistratura səviyyəsinin 7003017 – Sənətşünslıq ixtisası üzrə təhsil proqramı (bundan sonra – təhsil proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların Təsnifatı"na, qabaqcıl beynəlxalq təcrübə və əmək bazarının tələblərinə uyğun olaraq hazırlanmışdır.

1.2. Təhsil proqramının məqsədləri aşağıdakılardır:

- ixtisas üzrə məzunun səriştələrini, ixtisasın çərçivəsini, fənlər üzrə tədris və təlim metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktur və kadr potensialına olan tələbləri, təhsilalanın təcrübə keçmə, işə düzəlmə və təhsilini davam etdirmə imkanlarını müəyyənləşdirmək;
- təhsilalanları və işəgötürənləri məzunların əldə etdiyi bilik, bacarıq və təlim nəticələri ilə tanış etmək;
- təhsil proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı prosesə cəlb olunan tərəfdaşları məlumatlandırmaq.

1.3. Təhsil proqramı, tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə magistr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Təhsilalanın 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 akademik saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Bu zaman auditoriya saatlarının həcmi 12-16 akademik saat təşkil edir. Peşəkar məqsədlər üçün dərindən öyrənilən ixtisaslaşmalar üzrə həftəlik dərs yükünün həcmi dəyişdirilə bilər.

1.5. Ali təhsil müəssisəsi tərəfindən ixtisasın həmin müəssisədə kadr hazırlığı aparılan hər bir ixtisaslaşması üzrə ayrıca təhsil proqramı hazırlanmalıdır. Hər bir ixtisaslaşma üzrə təhsil proqramı müvafiq ixtisasın təhsil proqramındakı bölmələrlə yanaşı, həmin ixtisaslaşma üzrə tədris və təlim metodları, təlim nəticələrinin qiymətləndirilməsi üsulları, təcrübələrin təşkili və qiymətləndirilməsi və s. bölmələri də əks etdirməlidir.

## 2. Məzunun səriştələri

2.1. Təhsil proqramının sonunda məzun aşağıdakı ümumi səriştələrə yiyələnməlidir:

- peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri müstəqil şəkildə həll edə bilmək;
- müvafiq fəaliyyət və metodları təklif etmək, planlaşdırmaq, onların cari və perspektiv nəticələrini təhlil etmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin səbəblərini araşdırmaq, konkret vaxt çərçivəsində və məhdud informasiya şəraitində onları həll edə bilmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı müvafiq texnologiya və metodları seçmək və onlardan istifadə etmək, həmçinin gözlənilən nəticələri müəyyənləşdirmək, dəyərləndirmək və qiymətləndirmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı öz fəaliyyətini tənqidi şəkildə dəyərləndirmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemləri Azərbaycan dilində və bir xarici dildə şifahi və yazılı olaraq təqdim etmək, əsaslandırmaq, həmçinin mütəxəssis və qeyri-mütəxəssislərlə birgə müvafiq müzakirələrdə iştirak etmək;

- müxtəlif üsullarla öz bilik və səriştələrini başqalarına ötürə bilmək;
- istənilən şəraitdə etik davranış qaydalarına uyğun şəkildə fəaliyyət göstərmək, şəxsi davranışlarının etik aspekt və imkanlarını, məhdudiyyətlərini və sosial rolunu anlamaq;
- davamlı öyrənmə və peşəkar inkişafla bağlı özünün və digərlərinin ehtiyaclarını qiymətləndirmək, həmçinin müstəqil öyrənmə üçün zəruri olan səmərəli metodlardan istifadə edə bilmək;
- sənətşünaslıq sahəsində nəzəri və tənqidi metodları bilmək, elmi problemi formalaşdırmaq, hipotez irəli sürmək və tədqiqat metodlarının nəticələrini əsaslandırmaq;
- yüksək ixtisaslı sənətşünas funksiyalarını həyata keçirmək;
- sahəsi üzrə müxtəlif KİV-də redaktor və ekspert kimi elmi-publisistik məqalələri yazmaq və şərh etmək;
- sənətşünaslığa dair əsərlər haqqında tənqidi məqalələr yazmaq və dərc etdirmək;
- sənətşünaslığın təbliği üçün maarifləndirmə işi aparmaq;
- konfrans, seminar, simpozium və mədəni tədbirləri təşkil və idarə etmək;
- sahə üzrə terminologiyadan düzgün istifadə etmək;
- sahə üzrə proseslərin sənədləşdirmə işlərini apara bilmək.

2.2. Təhsil proqramının sonunda məzun aşağıdakı peşə səriştələrinə yiyələnməlidir:

***Təsviri sənət tarixi və nəzəriyyəsi ixtisaslaşması üzrə:***
- tədqiqatlarda kompleks sənətşünaslıq yanaşmasını və texniki-texnoloji ekspertiza biliklərini tətbiq etmək;
- müasir sənətşünaslıq nəzəriyyələri və fəlsəfi yanaşmalar üzrə geniş biliklərə əsaslanaraq təsviri sənət əsərlərinin məzmun və forma baxımından tədqiqini həyata keçirmək;
- müxtəlif nəzəri məktəbləri müqayisəli şəkildə təhlil edərək incəsənət hadisələrini ideoloji, sosioloji və tarixi-mədəni kontekstlərdə izah etmək;
- təsviri sənət əsərlərinin vizual dil sistemini, texniki-texnoloji xüsusiyyətlərini təhlil etmək;
- təsviri sənət əsərlərinin ideya və estetik funksiyalarını elmi əsaslarla izah etmək;
- sənətşünaslıq terminologiyasını peşəkar səviyyədə bilmək və tətbiq etmək;
- təsviri sənət sahəsində sərgi, layihə və digər kurator fəaliyyətlərini planlaşdırmaq, idarə etmək və həyata keçirmək.

## 3. Təhsil proqramının strukturu

3.1. Təhsil proqramının mənimsənilməsinin normativ müddəti və məzunlara verilən ali elmi-ixtisas dərəcəsi:

| İxtisaslaşmaların adları | Verilən dərəcə | Əyani forma üzrə təhsil müddəti | Kreditlərin sayı |
|---|---|---|---|
| Təsviri sənət tarixi və nəzəriyyəsi | Magistr ali elmi-ixtisas | 2 il | 120 |

3.2. Təhsil proqramı ixtisas (ixtisaslaşma) üzrə 90 (1,5 il) AKTS kreditindən ibarət olmalıdır. Hər semestrdə 5 fəndən çox olmamaq şərti ilə 30 kredit nəzərdə tutulmuşdur. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

| Sıra sayı | Fənnin adı | AKTS krediti |
|---|---|---|
| 1 | **Tədqiqat metodları**<br>Bu fənn kəmiyyət və keyfiyyət tədqiqat metodlarının, ölçmə, tədqiqat dizaynı və təhlilin qarşılıqlı asılılığına diqqət yetirir. Fənn çərçivəsində tədqiqat səriştələri, kitabxana və internet resurslarından məlumat qaynağı kimi istifadə edilməsi, verilənlərin araşdırılması, təhlil edilərək təqdim edilməsi kimi keyfiyyətin aşılanmasını nəzərdə tutur. | 6 |
| 2 | **Akademik yazı və etika**<br>Bu fənnin məqsədi akademik yazı, danışıq və dürüstlüyün əsaslarını öyrətmək, magistrantların elmi məqalə, dissertasiya, esse və digər akademik sənədləri peşəkar şəkildə yazmaq, konfrans, simpozium, seminar və elmi diskussiyalarda peşəkar şəkildə danışmaq, nəşr etikası bacarıqlarını inkişaf etdirməkdir. Fənn təhsilalanlara akademik üslub, mənbələrdən düzgün istifadə, istinad qaydaları və etik normalar haqqında bilik və səriştələr verəcəkdir. | 6 |
| 3 | **Tədqiqat analitikası**<br>Bu fənnin tədrisi məlumat təhlili prosesi, məlumat növləri, məlumatların toplanma mənbələri, məlumat təhlili üzrə strategiyanın qurulması, məlumatların təhlil üçün hazırlanması və təmizlənməsi, təhlil üçün məlumatların sistemləşdirilməsi, məlumatların vizuallaşdırılması, sahəyə uyğun olaraq təhlillərdə istifadə olunacaq proqram təminatları ilə tanışlıq ("Excel", "SPSS", "Stata", "R", "MAXQDA", "Matlab", "Python" və s. kimi), ixtisas sahəsində tədqiqatlarda istifadə olunan təhlil metodları ilə təhlillərin aparılması (statistik testlər və təhlillər, kəmiyyət və keyfiyyət təhlilləri, eksperimental təhlillər, anket və sorğu təhlilləri və s. kimi) və təhlillərin əsasında müvafiq rəylərin hazırlanmasını nəzərdə tutur. | 6 |
| ... | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən məcburi fənlər** | |
| 4 | **Ali məktəb pedaqogikası və psixologiya**<br>Ali məktəb pedaqogikası və psixologiyası fənni ali təhsil müəssisələrində tədris-tərbiyə prosesinin elmi əsaslarını öyrədir. Fənnin məzmunu pedaqoji nəzəriyyələrin inkişafını, ali təhsildə müasir təlim metodlarını, tələbə və müəllim münasibətlərini, həmçinin təlimin psixoloji qanunauyğunluqlarını əhatə edir. Tələbələr bu fənn vasitəsilə ali məktəb mühitində tədrisin pedaqoji prinsipləri və psixoloji aspektləri barədə bilik əldə edirlər. | 6 |
| 5 | **İncəsənət və süni intellekt**<br>Əsas təhsil proqramının strukturunda "İncəsənət və süni intellekt" fənni incəsənət sahəsində rəqəmsal texnologiyaların və süni intellektin imkanlarını öyrənməyə yönəlmiş müasir və innovativ bir fənndir. Bu fənn tələbələrə yaradıcılıq proseslərində süni intellektin tətbiqini, rəqəmsal incəsənətin inkişaf tendensiyalarını və texnoloji alətlərin estetik dəyərlərlə əlaqəsini anlamağa imkan yaradır. Fənn seçmə fənlər blokuna daxil olmaqla, tələbələrin analitik, yaradıcılıq və texnoloji bacarıqlarının inkişafında mühüm rol oynayır. | 6 |
| 6 | **Təsviri sənətin nəzəriyyəsi**<br>"Təsviri sənətin nəzəriyyəsi" fənninin məqsədi magistrantlara təsviri sənətin mahiyyəti, formalaşma qanunauyğunluqları, janr strukturunun əsasları və bədii | 6 |

| | | |
|---|---|---|
| | ifadə vasitələrinin nəzəri əsaslarını öyrətməkdir. Bu fənn tələbəyə təsviri sənət əsərlərinin daxili quruluşunu, semantik məzmununu və onun fəlsəfi-estetik təhlilini aparmaq bacarığı qazandırır.<br>Fənn təsviri sənətin spesifikası, janr bölgüsü (portret, mənzərə, natürmort, məişət və tarixi janr), bədii obrazın yaranması prosesi, forma və məzmun münasibətləri, rəng və plastika anlayışlarının nəzəri əsasları, bədii üslublar və estetik kateqoriyalar (gözəllik, ucalıq, faciə, komik və s.) üzrə sistemli biliklər təqdim edir.<br>Təsviri sənətin formalaşma və inkişaf qanunauyğunluqlarını öyrətmək, fənn üzrə əsas terminləri və kateqoriyaları mənimsətmək, bədii nəzəriyyələrin sənətşünaslıq kontekstində tətbiqini izah etmək, təsviri sənət əsərinin struktur analizini aparmaq bacarığı formalaşdırmaq və magistrantlara müstəqil nəzəri təhlil və bədii interpretasiya vərdişləri aşılamaq fənnin əsas vəzifələridir.<br>Elmi tədqiqat və təhlil fəaliyyətində sənətşünasın malik olmalı olduğu əsas nəzəri baza bu fənn vasitəsilə formalaşdırılır. | |
| 7 | **Azərbaycan sənətşünaslıq elminin inkişaf tarixi**<br>Fənn magistrantlara Azərbaycan sənətşünaslıq elminin formalaşma mərhələləri, aparıcı istiqamətləri və görkəmli sənətşünasların elmi irsi haqqında sistemli bilik verməyi aşılayır.<br>Milli sənətşünaslıq məktəbinin təşəkkülü, XX əsrin əvvəllərindən müasir dövrədək keçdiyi əsas inkişaf mərhələləri, nəzəri və tətbiqi tədqiqatların məzmunu, memarlıq, təsviri və dekorativ-tətbiqi sənətlər sahəsində aparılmış elmi istiqamətlər fənnin əsas mövzularıdır.<br>Fənn magistrantlara milli sənətşünaslıq elminin elmi əsaslarını və istiqamətlərini dərindən mənimsəməyə, müasir elmi yanaşmalarla əlaqələndirməyə imkan yaradır. | 6 |
| 8 | **Təsviri sənətdə tənqidin metodologiyası**<br>Fənnin məqsədi magistrantlara təsviri sənət əsərlərinin tənqidində istifadə olunan əsas metod və yanaşmaları öyrətmək, peşəkar təhlil və qiymətləndirmə bacarığı formalaşdırmaqdır. Əsərin tənqidi təhlili, bədii ideya və forma münasibətləri, janr və üslub xarakteristikası, ictimai-estetik kontekstin nəzərə alınması, klassik və müasir tənqid meyarları fənnin əsas mövzularını təşkil edir. Ənənəvi və alternativ tənqid üsullarına da yer verilir.<br>Fənn magistrantlara təsviri sənət əsərinə elmi əsaslarla yanaşma, obyektiv qiymətləndirmə və peşəkar tənqid aparmaq üçün nəzəri və metodoloji biliklər qazandırır. | 6 |
| 9 | **Təsviri sənətin metodologiyası**<br>Fənn magistrantlara təsviri sənətin tarixinin tədqiqində tətbiq olunan əsas elmi metodların mənimsədilməsi və sənətşünaslıqda metodoloji düşüncə bacarığının inkişaf etdirilməsi məqsədi daşıyır.<br>Tarixi sənətşünaslıq məktəbləri, təsviri sənətin dövrləşmə prinsipləri, üslub anlayışı, kontekstual və ikonoloji yanaşmalar, formal analiz, struktur və sistemli metodlar, eləcə də müasir metodoloji yanaşmalar fənnin əsas istiqamətlərini təşkil edir.<br>Fənn magistrantlara təsviri sənət tarixini müxtəlif yanaşmalarla dəyərləndirmə, tarixi materialı tənqidi təhlil etmə və təsviri sənət əsərlərinə metodoloji əsaslarla yanaşma bacarığı qazandırır. | 6 |

| | | |
|---|---|---|
| 10 | **Təsviri sənətin müasir problemləri**<br>Bu fənn müasir dövrdə təsviri sənət sahəsində meydana çıxan nəzəri, estetik, texnoloji və institusional problemlərin kompleks şəkildə öyrənilməsini aşılayır. Təsviri sənətin klassik ənənələri ilə müasir təzahürləri arasında yaranan ziddiyyətlər, yeni texnologiyaların təsviri sənətə təsiri, sənət əsərinin statusu və tamaşaçı ilə münasibət kimi məsələlər fənnin əsas tədqiqat obyektləridir.<br>Fənn çərçivəsində rəssamın fərdi yaradıcılığı ilə müasir sənət bazarının tələbləri, kuratorluq institutunun rolu, sərgi mədəniyyətinin transformasiyası, ictimai sifariş və konseptual sənət kimi aktual mövzular təhlil olunur. Müasir sənət meyarlarının qeyri-müəyyənləşməsi fonunda estetik dəyərlərin nisbiləşməsi və sənət əsərinin tanınma meyarları da əsas müzakirə mövzularındandır.<br>Magistrantlar bu fənn vasitəsilə təsviri sənətin inkişaf trayektoriyalarını, onun qarşılaşdığı konseptual və institusional çağırışları analiz etməyi, müasir bədii dilləri təhlil etməyi və bu sahədə müstəqil tədqiqat bacarığı formalaşdırmağı öyrənəcəklər. | 6 |
| 11 | **Təsviri sənət əsərlərinin ekspertizası və dəyərləndirilməsi**<br>Bu fənn təsviri sənət əsərlərinin autentikliyinin, bədii və maddi dəyərinin müəyyənləşdirilməsini və onların elmi əsaslarla qiymətləndirilməsini öyrədir. Məqsəd magistrantlara incəsənət nümunələrinin kompleks təhlil üsullarını, ekspertiza meyarlarını və dəyərləndirmə metodlarını mənimsətməkdir.<br>Fənnin məzmununa əsərin atribusiyası, müəlliflik və üslubun təyini, dövr və məktəb kontekstində araşdırılması daxildir. Texniki və material xüsusiyyətlərinin öyrənilməsi, sənədli təsdiqləmə və provenans məsələləri də əsas istiqamətlərdəndir. Saxta nümunələrin aşkarlanması, müqayisəli analizlər, həmçinin əsərin estetik, tarixi və sosial dəyəri ilə yanaşı, bazar qiyməti və rəssamların reytinqləri nəzərdən keçirilir.<br>Tədris prosesi müxtəlif dövrlərə aid orijinal və saxta nümunələrin müqayisəli təhlilinə, muzey və qalereya təcrübəsinin öyrənilməsinə, auksion praktikasına və rəsmi ekspertiza sənədlərinin hazırlanmasına əsaslanır. Bu zaman tarix, kimya, hüquq, texnologiya və arxiv elmlərinin nəticələri də tətbiq olunur.<br>Fənni mənimsəyən magistrantlar təsviri sənət əsərlərinin orijinallığını müəyyənləşdirmək, onların dəyərini qiymətləndirmək və peşəkar ekspert rəyi hazırlamaq bacarığı əldə edirlər. Bu biliklər muzeyşünaslıq, kuratorluq, incəsənət bazarı və bədii irsin qorunması kimi sahələrdə tətbiq olunur. | 6 |
| | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən seçmə fənlər** | |
| | **a) Türk incəsənətinin inkişaf xüsusiyyətləri**<br>Fənn magistrantlara türk incəsənətinin inkişaf mərhələlərini, bədii-üslub xüsusiyyətlərini və mədəni-tarixi kontekstlərini sistemli şəkildə öyrədir.<br>Fənnin tədrisi zamanı qədim dövrdən başlayaraq Səlcuqlu, Osmanlı və müasir dövr türk incəsənəti ümumtürk bədii mədəniyyəti kontekstində mövzuların tərtibatı araşdırılır, türk incəsənətinin bədii xüsusiyyətlərinə və inkişaf mərhələlərinə əsaslanaraq fərqli sahələrə görə təqdim edilir. Memarlıq, dekorativ-tətbiqi sənət, miniatür, xəttatlıq, təsviri sənət və müasir cərəyanlar fənnin əsas mövzularını təşkil edir. Siyasi və dini faktorların incəsənətə təsiri də ayrıca təhlil olunur.<br>Fənn magistrantlara türk incəsənətini tarixi ardıcıllıqla dərk etmək, üslub fərqlərini ayırd etmək və incəsənət hadisələrini mədəni kontekstdə təhlil etmək bacarığı qazandırır. | |

| | | |
|---|---|---|
| 12 | **b) Şərq miniatür tarixi**<br>Fənn Şərq miniatür üslubunun çoxəsrlik inkişaf mərhələlərini, onun bədii-estetik prinsiplərini, formalaşma xüsusiyyətlərini və regional məktəblərin qarşılıqlı təsirini kompleks şəkildə öyrənir. Fəndə miniatürün yaranma qaynaqları, ilkin bədii ənənələri və bu ənənələrin ümumşərq incəsənəti kontekstində rolu xüsusi diqqətlə təhlil edilir. Miniatürün incəsənətin digər sahələri – memarlıq tərtibatı, bədii metal, bədii toxuculuq və tekstil nümunələrindəki süjet kompozisiyaları ilə əlaqələri elmi şəkildə şərh olunur.<br>Fənnin məzmununda miniatür üslubunun kitab tərtibatı ilə üzvi bağlılığı, əlyazma mədəniyyətində tutduğu mövqe, bədii kompozisiya və obraz sisteminin formalaşma qanunauyğunluqları geniş araşdırılır. Miniatür məktəblərinin, xüsusilə Bağdad, Təbriz, Herat, Şiraz, Moğol və Osmanlı məktəblərinin yaranma prosesi, qarşılıqlı təsirləri və saray mühitində himayə edilərək inkişafı müqayisəli təhlil əsasında izah edilir.<br>Fəndə dövrümüzə qədər gəlib çatan ilk əlyazmalarına çəkilmiş miniatürlərlə başlanan ənənə ardıcıllıqla izlənir və müxtəlif dövrlərin bədii-estetik xüsusiyyətləri əsər nümunələri əsasında araşdırılır. Görkəmli miniatür ustalarının yaradıcılığı, onların bədii üslub xüsusiyyətləri, məktəb formalaşdıran rəssamların rolu və təsiri elmi kontekstdə şərh edilir. | 6 |
| 13 | **a) Qafqaz xalqlarının incəsənəti**<br>Fənnin tədrisi zamanı Qafqaz coğrafiyasında yaşayan əsas xalqların – Azərbaycanlılar, gürcülər, avarlar, osetinlər, ləzgilər, çeçenlər və digər etnosların tarixi-mədəni inkişafı fonunda formalaşan bədii ənənələri öyrənililir. Fənn çərçivəsində Qafqaz xalqlarının memarlıq, təsviri və dekorativ-tətbiqi sənətlərin müxtəlif növlərinə dair biliklər araşdırılır.<br>Fənn həm ənənəvi incəsənət formalarının etnoqrafik və mifoloji köklərini, həm də XIX–XX əsrlərdə formalaşan milli bədii məktəbləri təhlil edir. Qafqaz regionunun zəngin etnik müxtəlifliyi və coğrafi mövqeyi burada mədəni sintez və təsirləri ön plana çıxarır. Dərslər zamanı incəsənət nümunələri həm estetik, həm də sosial-mədəni kontekstdə şərh olunur.<br>Magistrantlar bu fənn vasitəsilə Qafqaz xalqlarının incəsənətində milli kimliyin ifadə vasitələrini, dini və dünyəvi motivlərin qarşılıqlı təsirini, regional üslub fərqlərini və bədii simvolların mənşəyini dərk etmək bacarığı əldə edəcəklər.<br>**a) Müasir dekorativ-tətbiqi sənətin aktual problemləri**<br>Fənn dekorativ-tətbiqi sənətin çağdaş mərhələdəki inkişaf tendensiyalarını, bədii-texnoloji xüsusiyyətlərini və funksional istiqamətlərini elmi kontekstdə öyrənir. Fəndə dekorativ-tətbiqi sənətin müasir tətbiq sahələri, müxtəlif sənət növləri ilə sintez prinsipləri, ənənəvi bədii dəyərlərin müasir materiallar, texnologiyalar və forma axtarışları ilə qarşılıqlı əlaqə modeli geniş şəkildə təhlil edilir.<br>Tədris prosesində dekorativ-tətbiqi sənətin aktual istiqamətləri – keramika, şüşə, ağac, metal, tekstil, bədii tikmə, xalçaçılıq və digər sahələrdə müşahidə olunan yeni bədii axtarışlar, həmçinin bu sahənin inkişafında qloballaşma, texnoloji innovasiyalar və rəqəmsal mühitin yaratdığı imkanlar sistemli şəkildə şərh olunur. Fənin məqsədi tələbələrdə dekorativ-tətbiqi sənətin inkişaf tendensiyalarını analitik şəkildə təhlil etmək, müasir praktikada ənənə və yenilik münasibətini müəyyənləşdirmək və bu sahənin aktual problemlərinə dair elmi-nəzəri nəticələr çıxarmaq bacarığı formalaşdırmaqdır. | 6 |

| | | |
|---|---|---|
| 14 | **a) Layihələrin idarə olunması**<br>Bu fənn çərçivəsində layihə üzrə komanda quruculuğu və fəaliyyətinin xüsusiyyətləri, layihədə liderlik, layihə menecerinin vəzifələri və digər məsələləri ətraflı izah olunur, eləcə də layihənin mahiyyəti, vaxt cədvəlləri, kommunikasiyalar, təchizat, maraqlı tərəflərlə peşəkar münasibətlər və digər mövzularda biliklər aşılanır. Bununla yanaşı, sözügedən fənn layihələrin çevik idarə edilməsi ilə bağlıdır. Burada dəyişikliklər fonunda layihələrin idarə edilməsi, risklərin düzgün qiymətləndirilməsi, "Məhsul sahibi" və "Scrum Master"in vəzifələri və s. mövzular əhatə olunmalıdır.<br><br>**b) İşgüzar xarici dil**<br>Təhsil proqramının strukturu ümumi fənnlər bölməsində əks olunur və əsas fənnlər bölməsinin tərkibindədir. "İşgüzar xarici dil (ingilis dili)" fənni magistratura səviyyəsində təhsil alan tələbələrə ümumi və terminoloji səciyyəli 4000 tədris leksik vahidləri həcmində leksik minimumu, elmi üslubun əsas xüsusiyyətlərini, öyrənilən dil ölkələrinin mədəniyyət və adət-ənənələrini, nitq etiketləri qaydalarını öyrədir. Xarici dildə lüğətin köməyi ilə oxumaq və yazmaq vərdişlərinə, ali tədris müəssəsində tədris və tədqiqat işləri aparmağa yiyələndirir. | 6 |
| 15 | **a) Müasir Azərbaycan mədəniyyəti**<br>Müasir Azərbaycan mədəniyyəti fənni ölkənin XX əsrin sonu və XXI əsrdə formalaşmış mədəni-mənəvi mühitinin elmi-nəzəri əsaslarını, inkişaf dinamikasını və bu prosesin sənət sahələrinə təsir mexanizmlərini əhatə edir. Fənn müstəqillik dövründə cəmiyyətin siyasi, sosial və iqtisadi transformasiyalarının bədii yaradıcılıq sahələrinə, mədəni institutların fəaliyyətinə və milli mədəni identikliyin formalaşmasına necə təsir etdiyini sistemli şəkildə araşdırır.<br>Tədris müddətində musiqi, təsviri sənət, monumental dekorativ sənət, teatr və kino kimi sahələrdə çağdaş tendensiyalar, yeni estetik axtarışlar, modern və postmodern ifadə formaları, eləcə də rəqəmsallaşma və qloballaşmanın sənətə gətirdiyi yeniliklər təhlil olunur. Fənn həmçinin Azərbaycanın müasir mədəniyyət siyasətini, dövlətin mədəniyyət qurumlarının fəaliyyət prinsiplərini və yaradıcı sənayelərin inkişaf istiqamətlərini araşdıraraq sənətşünaslıq ixtisası üzrə magistrantlarda analitik və tənqidi düşünmə bacarığını gücləndirir.<br>**b) Mədəni antropologiya**<br>"Mədəni antropologiya" fənni insan cəmiyyətlərinin mədəni müxtəlifliyini, mədəni davranış nümunələrini, dəyərləri, inancları və sosial praktikaları elmi əsaslarla öyrənən bir sahədir. Fənn mədəniyyətin formalaşma proseslərini, onun tarixi inkişafını, strukturlarını və funksiyalarını izah etməklə yanaşı, mədəniyyətin sənətə, yaradıcılığa və estetik modellərə təsirini təhlil edir. | 6 |
| | **Təcrübə** | |
| ... | **Elmi-pedaqoji təcrübə** | 6 |
| ... | **Elmi tədqiqat təcrübəsi** | 6 |
| | **Dissertasiya işi** | |
| ... | **Magistrlik dissertasiyası** | 18 |
| **CƏMİ** | | |

## 4. Proqramın və hər bir fənnin təlim nəticələri

4.1. Bu təhsil proqramı üzrə məzunlar təhsil və ya fəaliyyət sahəsi ilə bağlı əsas anlayışlar, nəzəri prinsip və tədqiqat metodları haqqında sistemli, ümumi təsəvvürə və geniş biliyə malik olmalı, konkret (ixtisaslaşmış) təhsil və ya fəaliyyət sahəsində dərin biliklərə yiyələnməlidirlər.

4.2. İxtisaslaşmanın təhsil proqramının hər bir fənn üzrə təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

4.3. İxtisaslaşma üzrə proqramın təlim nəticələri Əlavə 1-də müəyyən olunur. Fənlər üzrə təlim nəticələri isə hər bir ali təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təhsil proqramının təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

4.4. Təhsil proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən elmi və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 5. İnfrastruktur və kadr potensialı

5.1. Ali təhsil müəssisəsi tədris, təlim və qiymətləndirmə fəaliyyətlərinin yüksək səviyyədə təşkil olunması üçün informasiya-kommunikasiya texnologiyaları ilə təchiz edilmiş müasir auditoriyalara malik olmalı, tələbələrə lokal şəbəkə və internetə, elektron kitabxanalara və onlayn arxiv resurslarına fasiləsiz çıxış imkanı yaratmalıdır. Eyni zamanda, tələbələrin ixtisaslaşma üzrə dərin biliklərə yiyələnməsi və elmi-tədqiqat işlərinin aparılmasını dəstəkləmək məqsədilə müasir elmi jurnallar, elmi məlumat bazalarına və virtual laboratoriya mühitlərinə, akademik etik mühitə inteqrasiya üçün antiplagiat sistemlərinə çıxışı təmin edilməlidir.

Ayrı-ayrı ixtisaslaşmalar üzrə aşağıdakı infrastruktur tələbləri nəzərə alınmalıdır:

***Təsviri sənət tarixi və nəzəriyyəsi ixtisaslaşmaları üzrə:***

- Xüsusi daşıyıcılarda daşınan təsviri sənət, dekorativ-tətbiqi sənət əsərləri nünumələri və dizayn layihələri toplusu.

5.2. Ali təhsil müəssisələrinin tədrisə cəlb olunan akademik heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur. Elmi dərəcəsi olmayan, lakin müvafiq sahədə ən az 5 il iş təcrübəsi olan mütəxəssislər də tədrisə cəlb oluna bilərlər.

5.3. Magistrlik dissertasiyalarına elmi rəhbərlik, bir qayda olaraq, elmi ada və ya elmi dərəcəyə sahib olan şəxslər tərəfindən həyata keçirilir.

## 6. Karyera imkanları və ömürboyu təhsil

6.1. Sənətşünaslıq ixtisası üzrə magistratura təhsili almış mütəxəssis dövlət qurumları, Mədəniyyət Nazirliyi, Turizm Agentliyi və yerli icra hakimiyyətlərinin mədəniyyət şöbələri; təhsil proqramları və dərsliklərin hazırlanmasında ekspert; ölkə xaricində fəaliyyət göstərən qurumlar və diplomatik korpuslarda mədəniyyət sahəsi üzrə məsul şəxs; ATM-lərin bakalavriat səviyyəsində, incəsənət yönümlü orta ixtisas, tam orta təhsil müəssisələrində pedaqoq; kütləvi informasiya mərkəzlərində jurnalist, redaktor, ekspert; Mədəniyyət tədbirləri, festivallar və simpoziumların təşkilatçısı; kino, teatr və incəsənət tənqidçisi; mədəni sahədə festivallarda sahəsi üzrə ekspert, jüri, koordinator; sahəsi üzrə müxtəlif KİV-lərdə redaktor və ekspert; sahəsi üzrə AMEA və digər elmi-tədqiqat institutlarında elmi işçi; UNESCO, ICOM, ISESCO kimi təşkilatlarda, QHT-lərdə

mədəni irs, mədəni irsin qorunması, maarifləndirmə üzrə ekspert; mədəni layihələr və tədbirlərin təşkilatçılığı sahəsində işləyə bilər.

6.2. Ali təhsil müəssisəsi təhsil proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb-səhifələrində yerləşdirməlidir.

6.3. Ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistrlik dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan şəxslər (tibbi təhsildə həkim-mütəxəssis) fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul oluna bilərlər.

6.4. Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömür boyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**Əlavə 1**

## Təhsil proqramı və tədris fəaliyyəti üzrə təlim nəticələri

***Təsviri sənət tarixi və nəzəriyyəsi ixtisaslaşması üzrə:***

| Proqramın təlim nəticələri (PTN) |
|---|
| **PTN 1.** Sənətşünaslıq (təsviri sənət tarixi və nəzəriyyəsi) sahəsində nəzəri və tənqidi metodlardan istifadə etməyi bacaracaq, elmi problemin formalaşdırılması, hipotezin irəli sürülməsi və tədqiqat metodlarının nəticələrini əsaslandırmağı bacaracaq. Kompleks sənətşünaslığın və texniki-texnoloji ekspertizanın nəzəri əsaslarını tətbiq etməyi bacaracaq. |
| **PTN 2.** Sənətşünaslıq nəzəriyyələrini və konseptual yanaşmaları mənimsəyəcək, bu nəzəri əsasları təsviri sənət əsərlərinin tədqiqində və interpretasiyasında tətbiq etməyi bacaracaq. Aparıcı müasir nəzəri məktəbləri fərqləndirməyi və müqayisəli şəkildə təhlil etməyi bacaracaq. |
| **PTN 3.** İncəsənətin fəlsəfi, bədii və ideoloji əsaslarını biləcək, təsviri sənət hadisələrinin sosioloji və tarixi-mədəni kontekstdə formalaşmasını və qarşılıqlı təsirlərini izah etməyi bacaracaq. |
| **PTN 4.** Təsviri sənət əsərlərinin vizual dil sistemini, simvolikası və texniki-texnoloji xüsusiyyətlərini təhlil edəcək, onların ideya-məzmun yükünü, estetik funksiyasını və formal-üslubi xüsusiyyətlərini elmi-nəzəri əsaslandırmağı bacaracaq. |
| **PTN 5.** Təsviri sənət terminologiyasını və anlayış sistemini peşəkar səviyyədə mənimsəyəcək, elmi məqalə, tədqiqat işi və təqdimatlarda terminoloji dəqiqliyə riayət etməyi bacaracaq. |
| **PTN 6.** Təsviri sənət sahəsində layihələrin idarə edilməsi, təşkili və digər kurator fəaliyyətini müstəqil şəkildə həyata keçirməyi bacaracaq. |
| **PTN 7.** Kəmiyyət və keyfiyyət tədqiqat metodlarının, ölçmə, tədqiqat dizaynı və təhlilin qarşılıqlı asılılığına əsaslanaraq tədqiqat aparacaq. Kitabxana və internet resurslarından məlumat qaynağı kimi istifadə edərək, verilənləri araşdırmağı və təhlil etməyi bacaracaq. |
| **PTN 8.** Ali təhsil sistemini, təlim prosesini, tədris metodikasını biləcək. Ali təhsil müəssisəsində ixtisas metodikası ilə bağlı biliklərdən istifadə etməklə bakalavriat səviyyəsində ixtisas fənlərini tədris etməyi bacaracaq. Təsviri sənət tarixi və nəzəriyyəsi sahəsində elmi-metodiki və pedaqoji səviyyədə tədris prosesini aparmağı bacaracaq. |
| **PTN 9.** Akademik yazı, danışıq və dürüstlüyün əsaslarını biləcək. Mənbələrdən düzgün istifadə etməklə elmi məqalə, esse və digər akademik sənədləri peşəkar şəkildə yazmağı bacaracaq. Konfrans, simpozium, seminar və elmi diskussiyalarda peşəkar şəkildə danışıq, nəşr etikası bacarıqlarına malik olacaq. Sahə üzrə sənədləşdirməni biləcək. |
| **PTN 10.** Məlumatların təhlil üçün hazırlanması və filtrasiyası, təhlil üçün sistemləşdirilməsi, vizuallaşdırılması, təhlili prosesi, növləri, toplanma mənbələri, təhlili üzrə strategiyanın qurulması və sahəyə uyğun olaraq təhlillərdə istifadə olunacaq proqram təminatları ("Excel", "SPSS" və s.) ilə tanış olacaq. İxtisas sahəsində tədqiqatlarda istifadə olunan təhlil metodları ilə təhlillər (statistik testlər və təhlillər, kəmiyyət və keyfiyyət təhlilləri, eksperimental təhlillər, anket və sorğu təhlilləri və s. kimi) aparmağı və təhlillərin əsasında müvafiq rəylər hazırlamağı bacaracaq. |

| Tədqiqat metodları fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| FTN 1 - Elmi tədqiqatların aparılması üçün kəmiyyət və keyfiyyət tədqiqat metodlarını, onların xüsusiyyətlərini və tətbiq sahələrini fərqləndirə və məqsədyönlü şəkildə tətbiq edə biləcək. |
| FTN 2 - Fəaliyyət sahələrində tədqiqat sualının formalaşdırılması, hipotezlərin və tədqiqat dizaynının (eksperimental və ya müşahidə xarakterli) qurulması bacarığına yiyələnəcək. |
| FTN 3 - Elmi mənbələrdən (kitabxana, elmi bazalar, elektron resurslar və s.) sistematik istifadə edərək mövcud bilikləri toplaya və onlara əsasən tədqiqat çərçivəsini formalaşdıracaq. |
| FTN 4 - Toplanmış verilənlərin ölçülməsi, statistik üsullarla işlənməsi, vizualizasiya edilməsi və tədqiqat məqsədlərinə uyğun olaraq təhlilini həyata keçirəcək. |
| FTN 5 - Tədqiqat nəticələrini məntiqi strukturda təqdim etməyi, elmi məqalə və hesabatlar şəklində yazmağı, həmçinin nəticələri şifahi və yazılı formada auditoriyaya təqdim etməyi bacaracaq. |
| FTN 6 - Tədqiqatın etik və metodoloji prinsiplərinə riayət etməklə müstəqil və ya qrup halında tədqiqat aparacaq, layihə və dissertasiya işlərinin hazırlanmasında metodoloji əsasları düzgün tətbiq edə biləcək. |

| Akademik yazı və etika fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| FTN 1 - Akademik yazının məqsədi, strukturu və üslub xüsusiyyətlərini anlayaraq elmi esse, dissertasiya, məqalə və digər akademik sənədləri məntiqi və peşəkar şəkildə yaza biləcək. |
| FTN 2 - Fərqli akademik janrlarda (məqalə, dissertasiya, tezis, referat və s.) yazı tələblərinə uyğun kontent hazırlamağı və ideyaları ardıcıl və əsaslandırılmış formada ifadə etməyi bacaracaq. |
| FTN 3 - Mənbələrlə işləmə bacarığına yiyələnərək akademik yazılarda müxtəlif istinad sistemlərindən (APA, MLA, IEEE və s.) düzgün istifadə etməyi və plagiatdan yayınmağı bacaracaq. |
| FTN 4 - Elmi diskussiyalar, seminarlar, simpozium və konfranslarda çıxış etmək üçün akademik danışıq üslubunu mənimsəməklə fikirlərini peşəkar şəkildə təqdim etməyi bacaracaq. |
| FTN 5 - Elmi fəaliyyət zamanı müəlliflik hüquqları, nəşr etikası və akademik dürüstlük prinsiplərini mənimsəyəcək və elmi araşdırmalarda bu prinsiplərə riayət edəcək. |
| FTN 6 - Elmi tədqiqat və yazı prosesində qarşıya çıxan etik dilemmaları və düzgün davranış modellərini analiz edəcək və elmi mühitdə etik qərarlar verməyi bacaracaq. |

| Tədqiqat analitikası fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| FTN 1 - Məlumatların növlərini və tədqiqatın məqsədinə uyğun olaraq məlumatların toplanma üsullarını təyin etməklə elmi-tədqiqat üçün effektiv məlumat toplama strategiyası hazırlayacaq. |
| FTN 2 - Tədqiqat məqsədlərinə uyğun olaraq məlumatların ilkin emalı (təmizlənməsi, kodlaşdırılması, strukturlaşdırılması) və təhlilə hazır vəziyyətə gətirilməsi proseslərini yerinə yetirəcək. |

| |
|---|
| FTN 3 - Fərqli proqram təminatlarında ("Excel", "EViews", "SPSS", "Python", "R", "Matlab" və s.) məlumatları analiz edərək sadə və mürəkkəb statistik göstəricilər əsasında nəticələr çıxaracaq. |
| FTN 4 - Tədqiqatlarda istifadə olunan əsas təhlil metodlarını (kəmiyyət, keyfiyyət, qarışıq və eksperimental təhlil üsulları) sahəyə uyğun şəkildə tətbiq edərək analitik nəticələr əldə edəcək. |
| FTN 5 - Analitik nəticələri vizual təqdimetmə alətləri (qrafiklər, diaqramlar, cədvəllər və s.) vasitəsilə elmi əsaslarla təqdim edəcək və nəticələri düzgün interpretasiya edəcək. |
| FTN 6 - Tədqiqat nəticələrinə əsaslanaraq məntiqi və sübutlara əsaslanan elmi rəy, tövsiyə və ümumiləşdirmələr hazırlayaraq tədqiqat hesabatları və elmi sənədlər tərtib edə biləcək. |

| **Ali məktəb pedaqogikası və psixologiya fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 - Ali təhsil müəssisələrində tədris prosesinin nəzəri və metodoloji əsaslarını izah edə biləcək. |
| FTN 2 - Müasir pedaqoji prinsiplər və təlim metodlarını dərs planlaşdırılmasında tətbiq edə biləcək. |
| FTN 3 - Auditoriya ilə effektiv ünsiyyət və təlim texnologiyalarından istifadə bacarıqları qazanacaq. |
| FTN 4 - Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi üçün müxtəlif qiymətləndirmə üsullarını tətbiq edəcək. |
| FTN 5 - Tədris prosesində innovativ və interaktiv metodlardan istifadə etməklə motivasiyanı artıracaq. |
| FTN 6 - Elmi-pedaqoji fəaliyyətində peşəkar standartlara riayət edərək dərs və tədqiqat işlərini təşkil edəcək. |

| **Layihələrin idarə olunması fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| **FTN 1.** Layihələrin idarə olunmasının nəzəri və metodoloji əsaslarını izah edə biləcək. |
| **FTN 2.** Layihə planlaması, resursların bölüşdürülməsi və vaxtın idarə olunması bacarıqlarına malik olacaq. |
| **FTN 3.** Layihələrin həyata keçirilməsi zamanı komanda üzvləri ilə əməkdaşlığı təşkil edəcək. |
| **FTN 4.** Layihə nəticələrini qiymətləndirəcək, riskləri müəyyənləşdirəcək və həll yolları təqdim edəcək. |
| **FTN 5.** Layihələrin effektivliyini artırmaq üçün strateji qərarlar qəbul edəcək və tövsiyələr hazırlayacaq. |

| İşgüzar xarici dil fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1.** Akademik yazı və danışıq qaydalarını, elmi dürüstlük prinsiplərini izah edə biləcək. |
| **FTN 2.** Elmi məqalənin strukturu və əsas komponentlərini sadalaya biləcək. |
| **FTN 3.** Akademik və işgüzar sənədləri (məktub, müraciət, CV, hesabat və s.) xarici dildə düzgün tərtib edə biləcək. |
| **FTN 4.** Esse yazma qaydalarını tətbiq edərək müxtəlif mövzularda esse hazırlaya biləcək. |
| **FTN 5.** Elmi məqalələri struktur, məzmun və üslub baxımından təhlil edə biləcək. |
| **FTN 6.** Nəşr etikası normalarını (istinad, müəlliflik hüquqları, plagiat) qiymətləndirə və öz işində tətbiq edə biləcək. |

| Müasir Azərbaycan mədəniyyəti fənni üzrə təlim nəticələri (FTN) | |
|---|---|
| **FTN 1.** | Müasir Azərbaycan mədəniyyətinin nəzəri əsaslarını, inkişaf mərhələlərini, mədəni prosesləri müəyyənləşdirən sosial, siyasi və estetik amilləri elmi baxımdan izah etməyi bacaracaq. |
| **FTN 2.** | XX əsrin sonu və XXI əsr Azərbaycan mədəniyyətində formalaşan əsas istiqamətləri və meyilləri, yeni bədii-estetik axtarışları və sənət növlərində baş verən transformasiyaları sistemli şəkildə təhlil edəcək. |
| **FTN 3.** | Müasir dövrdə təsviri sənət, musiqi, teatr, kino və digər sənət sahələrində baş verən yenilənmələri, aparıcı yaradıcı şəxslərin yaradıcılıq xəttini və onların mədəniyyətə təsirini qiymətləndirmə bacarığı əldə edəcək. |
| **FTN 4.** | Mədəniyyət siyasətinin mühüm istiqamətlərini, dövlət və qeyri-dövlət mədəniyyət institutlarının fəaliyyət modelini və bu institutların müasir incəsənətə təsir mexanizmlərini aydın şəkildə izah edəcək. |
| **FTN 5.** | Qloballaşma, rəqəmsallaşma, informasiya texnologiyalarının inkişafı kimi amillərin Azərbaycanın mədəni və bədii mühitinə təsirini elmi-metodoloji yanaşmalarla araşdıracaq və qiymətləndirəcək. |
| **FTN 6.** | Müasir Azərbaycan mədəniyyətində milli identiklik, modernlik və postmodernlik kimi anlayışların sənət proseslərində təzahür formalarını müqayisəli şəkildə təhlil edəcək. |

| Mədəni antropologiya fənni üzrə təlim nəticələri (FTN) | |
|---|---|
| **FTN 1.** | Mədəni antropologiyanın əsas anlayışlarını, nəzəri məktəblərini və yanaşmalarını dərindən izah edə biləcək, onların sənətşünaslıqda tətbiq imkanlarını əsaslandıra biləcək. |
| **FTN 2.** | Mədəniyyətin strukturu, funksiyası və inkişaf qanunauyğunluqlarını təhlil edə biləcək və bu bilikləri sənət nümunələrinin mənşəyinin, məzmununun və estetik xüsusiyyətlərinin araşdırılmasına tətbiq edə biləcək. |

| | |
|---|---|
| **FTN 3.** | Mədəni müxtəlifliyi, sosial norma və dəyərləri müqayisəli şəkildə qiymətləndirəcək, müxtəlif cəmiyyətlərdə sənət və yaradıcılığın mədəni kontekstlərini müəyyənləşdirə biləcək. |
| **FTN 4.** | Mədəni antropologiyanın sahə tədqiqatı metodlarını və etnoqrafik yanaşmaları tətbiq etmə bacarığına malik olacaq, toplanmış məlumatları elmi əsaslarla təhlil edib sənətşünaslıq tədqiqatlarına inteqrasiya edə biləcək. |
| **FTN 5.** | Qloballaşma, mədəni dəyişmə və sosial transformasiyaların incəsənətə təsirini qiymətləndirəcək, müasir və ənənəvi sənət nümunələrində mədəni proseslərin izlərini müəyyənləşdirəcək. |

| **İncəsənət və süni intellekt fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| **FTN 1.** Süni intellektin əsas prinsiplərini və yaradıcı sənayelərdə tətbiq olunan Sİ modellərinin (Generative AI, Machine Learning, Neural Networks) iş mexanizmlərini izah edə biləcək. |
| **FTN 2.** Sİ alətlərinin təsviri sənət, fotoqrafiya, rəqəmsal dizayn, video istehsalı və səhnə sənətləri sahələrində rolunu təhlil edəcək və onların yaradıcı prosesə təsirini qiymətləndirəcək. |
| **FTN 3.** Sİ platformalarından (məsələn, generativ qrafika, səs sintezi, mətn–səs–video generasiya alətləri) istifadə edərək sadə yaradıcı layihələr hazırlaya biləcək. |
| **FTN 4.** Süni intellektlə yaradılan sənət nümunələrinin estetik dəyərini, innovativ xüsusiyyətlərini və məhdudiyyətlərini professional şəkildə qiymətləndirəcək. |
| **FTN 5.** Sİ əsaslı yaradıcılığın etik, hüquqi və müəlliflik hüquqları ilə bağlı problemlərini müəyyənləşdirəcək və bu sahədə əsas beynəlxalq yanaşmaları izah edə biləcək. |
| **FTN 6.** İncəsənət və texnologiya sintezinin gələcək inkişaf istiqamətlərini proqnozlaşdıracaq, yaradıcı sənayelərdə Sİ-dən istifadə üzrə müstəqil tədqiqat və layihə işi aparmaq bacarığı nümayiş etdirəcək. |

| **Təsviri sənətin nəzəriyyəsi fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| **FTN 1.** Təsviri sənətin mahiyyətini, əsas kateqoriyalarını və terminoloji bazasını anlayacaq və izah edəcək. |
| **FTN 2.** Əsərlərin forma, kompozisiya, məzmun və stil aspektlərini nəzəri yanaşmalar əsasında təhlil edəcək. |
| **FTN 3.** Təsviri sənətin əsas nəzəri modelləri və istiqamətləri arasında müqayisəli analiz aparacaq. |
| **FTN 4.** Tarixi və çağdaş yanaşmalar əsasında təsviri sənətin ictimai funksiyasını və bədii təsir vasitələrini qiymətləndirəcək. |
| **FTN 5.** Müxtəlif incəsənət növləri sahələri ilə təsviri sənət arasındakı qarşılıqlı təsirləri izah edəcək. |
| **FTN 6.** Elmi mənbələrə əsaslanaraq müstəqil nəzəri mülahizələr irəli sürəcək və akademik şəkildə əsaslandıracaq. |

| Azərbaycan sənətşünaslıq elminin inkişaf tarixi fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1.** Azərbaycanda sənətşünaslıq elminin mərhələlərini və əsas simalarını tanıyacaq. |
| **FTN 2.** Tarixi şəraitlə sənətşünaslığın inkişaf dinamikası arasındakı əlaqəni təhlil edəcək. |
| **FTN 3.** Sənətşünaslıq üzrə yazılmış əsas mənbə və tədqiqatları sistemləşdirəcək. |
| **FTN 4.** Müxtəlif dövrlərdə sənətə yanaşmalardakı dəyişiklikləri fərqləndirəcək. |
| **FTN 5.** Azərbaycanın sənətşünaslıq ənənələrinin regional və beynəlxalq miqyasda rolunu qiymətləndirəcək. |
| **FTN 6.** Bu elmi sahənin müasir inkişaf perspektivləri barədə müstəqil fikir formalaşdıracaq. |

| Təsviri sənətdə tənqidin metodologiyası fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1.** Tənqidi yanaşmanın nəzəri əsaslarını və inkişaf mərhələlərini öyrənəcək. |
| **FTN 2.** Təsviri sənət əsərlərinə yönəlik analitik və qiymətləndirici baxış bucağı formalaşdıracaq. |
| **FTN 3.** Tənqidin əsas funksiyalarını və cəmiyyətlə əlaqəsini dərk edəcək. |
| **FTN 4.** Əsərlərin estetik və ictimai funksiyalarını tənqidi aspektdən analiz edəcək. |
| **FTN 5.** Tənqidçinin mövqeyi, dili və yanaşma tərzini metodoloji baxımdan əsaslandıracaq. |
| **FTN 6.** Tənqidi mətnlərin hazırlanmasında metodoloji ardıcıllığa riayət edəcək |

| Təsviri sənətin metodologiyası fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1.** Təsviri sənət tədqiqatlarında istifadə olunan əsas metodoloji yanaşmaları mənimsəyəcək. |
| **FTN 2.** Stilistik, ikonoloji, struktural və sosiomədəni təhlil üsullarını praktikada tətbiq edəcək. |
| **FTN 3.** Tədqiqat obyektinə uyğun təhlil metodu seçmə bacarığını formalaşdıracaq. |
| **FTN 4.** Müasir metodoloji debatları analiz edəcək və fərqli yanaşmaları müqayisə edəcək. |
| **FTN 5.** Elmi məqalə və araşdırmalarda metodoloji əsaslandırmanı düzgün quracaq. |
| **FTN 6.** Tədqiqat layihələrinin hazırlanmasında kompleks metodoloji yanaşmaları inteqrasiya edəcək. |

| Türk incəsənətinin inkişaf xüsusiyyətləri fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1.** Türk incəsənətinin tarixi inkişaf mərhələlərini, mədəni arealını və əsas istiqamətlərini izah edəcək. |
| **FTN 2.** Tarixi-mədəni kontekstə uyğun incəsənət nümunələrini analiz edəcək. |
| **FTN 3.** Ənənə ilə müasirlik arasındakı bədiimünasibətləri müəyyənləşdirəcək. |
| **FTN 4.** Ümumtürk incəsənətindəki formal-üslubi bənzərlikləriní və fərqliliklərini müqayisə edəcək. |
| **FTN 5.** Qədim dövr, orta əsrlər və müasir Türkiyə incəsənətini dövrlərə görə sistemləşdirəcək. |
| **FTN 6.** Türk incəsənətinin regionlararası təsir imkanlarını qiymətləndirəcək. |

| Şərq miniatür tarixi fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1.** Miniatürün ilkin estetik prinsiplərini, bədii ənənələrini və bu ənənələrin müxtəlif mədəni mühitlərdə davamlılığını dərin nəzəri biliklər əsasında təhlil edə biləcək. |
| **FTN 2.** Miniatürün müxtəlif tətbiq sahələrindəki rolunu, kompozisiya sistemini və motivlərin transformasiyasını araşdıra biləcək. |
| **FTN 3.** Məktəblərarası (Bağdad, Təbriz, Herat, Şiraz, Moğol, Osmanlı) fərqləri, üslubi cərəyanları və tarixi-mədəni şəraitin miniatür sənətinə təsirini elmi şəkildə əsaslandıra biləcək. |

| |
|---|
| **FTN 4.** Görkəmli miniatür ustalarının yaradıcılığını Orta əsrlər əlyazmalarına çəkilmiş miniatürlərin analitik təhlili vasitəsilə mənimsəyəcək. |
| **FTN 5.** Şərq miniatürünün bədii məzmununu, poetik strukturunu, simvolik dəyərlərini və əlyazma kitabı kontekstində funksiyasını araşdırmağı bacaracaq. |
| **FTN 6.** Şərq miniatürünün tədqiqat tarixini, müasir müzakirələri və tarixi mənbələrin elmi təhlilini tətbiq etməklə elmi-nəzəri nəticələr çıxarmağı bacaracaq. |

| **Qafqaz xalqlarının incəsənəti fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| **FTN 1.** Qafqaz regionunun incəsənətinin bədii xüsusiyyətini tanıyacaq. |
| **FTN 2.** Qafqaz xalqlarının incəsənətindəki bədii göstəricilərini, etnik və dini motivləri müəyyən edəcək. |
| **FTN 3.** Qafqaz incəsənətində milli ornamentika və ikonoqrafiyanın funksiyalarını analiz edəcək. |
| **FTN 4.** Qafqaz xalqları arasında bədii ünsürlərin qarşılıqlı təsirini təhlil edəcək. |
| **FTN 5.** Müasir dövrdə regional incəsənətin inkişaf problemlərini qiymətləndirəcək. |
| **FTN 6.** Əldə edilən bilikləri komparativ təhlil və tədqiqat işlərində tətbiq edəcək. |

| **Müasir dekorativ-tətbiqi sənətin aktual problemləri fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| **FTN 1.** Müasir dekorativ-tətbiqi sənətin inkişaf mərhələlərini, əsas istiqamətlərini və dəyişən bədii-texnoloji tendensiyalarını elmi-nəzəri əsaslarla izah edəcək. |
| **FTN 2.** Dekorativ-tətbiqi sənətin müxtəlif tətbiq sahələrini, material və texnika xüsusiyyətlərini, həmçinin ənənəvi və müasir üslub axtarışlarının qarşılıqlı əlaqəsini müəyyənləşdirəcək. |
| **FTN 3.** Müxtəlif sahələr üzrə müasir dekorativ-tətbiqi sənət nümunələrini forma, kompozisiya və texnoloji xüsusiyyətlər baxımından təhlil edəcək. |
| **FTN 4.** Dekorativ-tətbiqi sənət nümunələrinin brend, məhsul, suvenir və mədəni obyekt kimi dəyər qazanma mexanizmini analiz edə biləcək. |
| **FTN 5.** Dekorativ-tətbiqi sənətin müasir problemlərinə – ənənənin qorunması, yeni materialların tətbiqi, rəqəmsal texnologiyalar, qloballaşma təsirləri, sənətkar fərdiyyəti və müəlliflik məsələlərinə dair elmi yanaşmalar formalaşdıracaq. |
| **FTN 6.** Dekorativ-tətbiqi sənətlə bağlı müasir tədqiqatları, nəzəri yanaşmaları, müzakirə olunan problemləri və elmi ədəbiyyatı təhlil etməyi və elmi nəticələr çıxarmağı bacaracaq. |

| **Təsviri sənətin müasir problemləri fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| **FTN 1.** Müasir təsviri sənətdə meydana çıxan əsas nəzəri və praktik problemləri dərk edəcək. |
| **FTN 2.** Yeni texnologiyaların təsviri sənətə təsirini təhlil edəcək. |
| **FTN 3.** Müasir incəsənət bazarının, kuratorluğun və ictimai sifarişlərin incəsənətə yön verən funksiyalarını qiymətləndirəcək. |
| **FTN 4.** Əsər-tamaşaçı münasibətindəki dəyişiklikləri müasir yanaşmalarla izah edəcək. |
| **FTN 5.** Müasir təsviri sənət nümunələrində ideya və forma əlaqəsini tənqidə əsaslanaraq analiz edir. |
| **FTN 6.** Tədqiqat və layihə yönümlü fəaliyyətlərdə müasir problemləri müəyyən və əsaslandırılmış şəkildə təqdim edəcək. |

| Təsviri sənət əsərlərinin ekspertizası və dəyərləndirilməsi fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1.** Təsviri sənət əsərinin autentikliyini müəyyənləşdirməyə yönəlik ekspertizanın metodlarını mənimsəyəcək. Təsviri sənət əsərinin bədii və maddi dəyərini müəyyənləşdirən əsas göstəriciləri və meyarları ayırd edəcək. |
| **FTN 2.** Üslubi və texniki təhlil apararaq müəlliflik və dövrə dair əsəri atribusiya edəcək. Formal-üslubi, ikonoloji, ikoqrafik və sosial dəyərləndirmə metodlarını tətbiq edəcək. |
| **FTN 3.** Əsərin tarixçəsi, texniki xüsusiyyətləri və müəllif, orijinallıq səviyyəsi faktorunun qiymətə təsirini təhlil edəcək. Saxtalaşdırma halları və texniki diaqnostika üsullarını ayırd etməyi bacaracaq. |
| **FTN 4.** Ekspertiza sənədlərinin hazırlanması qaydalarına uyğun hesabat tərtib edəcək. İncəsənət bazarının meyarları və tendensiyalarını təhlil edəcək. |
| **FTN 5.** Muzey, qalereya və auksion sahələrində tətbiq olunan ekspertiza praktikalarını analiz edəcək, qiymətləndirmə proseslərinə əsaslı yanaşacaq. |
| **FTN 6.** Mürəkkəb ekspert hallarında interdisiplinar yanaşma tətbiq edəcək. Praktiki nümunələr üzərindən analitik rəy hazırlamağı bacaracaq. |

| Elmi-pedaqoji təcrübə üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - İxtisasa aid akademik fənlərin proqramlarının hazırlanması, dərs planlarının tərtib edilməsi, mühazirə və praktiki məşğələlərin təşkili, təlim materiallarının seçilməsi və hazırlanması üzrə bacarıqlar qazanacaq. |
| FTN 2 - Tədris prosesinin planlaşdırılması, auditoriya ilə işləmək, təlim strategiyalarının seçilməsi, tələbələrin fəallığını artırmaq üçün müasir təlim metodlarından istifadə etmə bacarığına yiyələnəcək. |
| FTN 3 - Pedaqoji fəaliyyət zamanı fənnin məzmununu müasir elmi yeniliklərə əsaslanaraq formalaşdırmaq və tətbiq etmək bacarığını inkişaf etdirəcək. |
| FTN 4 - Müasir informasiya-kommunikasiya texnologiyalarından (ICT), tədris proqram təminatlarından (CAD/CAM/CAE, simulyasiya proqramları, virtual laboratoriyalar) səmərəli istifadə etməyi öyrənəcək. |
| FTN 5 - Tədris fəaliyyətində açıq və səlis akademik ünsiyyət qurmaq, öz bilik və tədqiqat nəticələrini auditoriyaya aydın və əsaslandırılmış formada çatdırmaq bacarığına malik olacaq. |
| FTN 6 - Pedaqoji fəaliyyətin güclü və zəif tərəflərini müəyyən etməyi, refleksiya aparmağı və gələcək fəaliyyət üçün inkişaf istiqamətlərini müəyyən etməyi öyrənəcək. |

| Elmi tədqiqat təcrübəsi üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - İxtisas sahəsində aktual elmi-tədqiqat mövzularını müəyyənləşdirmək, tədqiqatın məqsəd ve vəzifələrini dəqiq formalaşdırmaq bacarığına malik olacaq. |
| FTN 2 - Konkret tədqiqat məqsədlərinə uyğun müasir elmi-tədqiqat metodlarını (situasiya analizi, əməliyyat-taktiki təhiil, modelləşdirmə, statistik metodlar və s.) seçmək və səmərəli tətbiq etmək bacarığına yiyələnəcək. |

| |
|---|
| FTN 3 - Əldə etdiyi eksperimental və nəzəri məlumatların işlənməsi, sistemləşdirilməsi, nəticələrin emal edilməsi, statistik analizinin aparılması və nəticələrin şərh olunması üzrə bacarıqlar əldə edəcək. |
| FTN 4 – Aparılmış tədqiqatların nəticələrini proseslərin optimallaşdırılması, tətbiqi və innovativ texnologiyaların işlənib hazırlanması istiqamətində tətbiq etmək bacarığına malik olacaq. |
| FTN 5 - Tədqiqat nəticələrini elmi məqalə, hesabat, dissertasiya formatında təqdim etmək, elmi konfrans və seminarlarda çıxış etmək, elmi diskussiyalarda iştirak etmək bacarığı əldə edəcək. |
| FTN 6 - Tədqiqat fəaliyyətində elmi etika prinsiplərinə (plagiatın qarşısının alınması, düzgün istinad qaydaları, müəllif hüquqlarına hörmət və s.) əməl etməyi və elmi məsuliyyəti dərk etməyi öyrənəcək. |

| **Magistrlik dissertasiyası üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 - Tədqiqat problemini əsaslandırmaq, məqsəd və vəzifələri dəqiq müəyyənləşdirmək, kompleks plan qurmaq, nəzəri və analitik üsullarla tədqiqatı tam həcmdə yerinə yetirmək bacarığına yiyələnəcək. |
| FTN 2 - İxtisas sahəsində elmi-nəzəri və praktiki problemləri dərindən təhlil etmək, təhlükəsizlik risklərinin qiymətləndirilməsi və operativ qərarların qəbulunda müasir elmi yanaşmaları tətbiq etməklə problemlərin müstəqil həllini təqdim etmək bacarığını nümayiş etdirəcək. |
| FTN 3 - Eksperimental və nəzəri nəticələrin riyazi modelləşdirilməsi, sistemli təhlili, analiz edilməsi və ümumiləşdirilməsi üzrə səriştə qazanacaq. |
| FTN 4 – Əldə olunan elmi nəticələrin ixtisas üzrə tətbiqini əsaslandırmaq, praktik tövsiyələr hazırlamaq və innovativ yanaşmalar təqdim etmək bacarığı əldə edəcək. |
| FTN 5 - Dissertasiya işinin məzmununu elmi auditoriya qarşısında aydın, əsaslandırılmış və strukturlaşdırılmış formada təqdim etmək, müdafiə etmək və elmi müzakirələrdə iştirak etmək bacarığına yiyələnəcək. |
| FTN 6 - Dissertasiya işində elmi etika və intizam qaydalarına riayət etmək, müəllif hüquqlarına hörmət, istinad qaydalarına əməl etmək və öz tədqiqat fəaliyyətinə məsuliyyətlə yanaşmaq bacarığını nümayiş etdirəcək. |

**Əlavə 2**

## Təhsil proqramı və tədris fəaliyyətlərinin təlim nəticələrinin matrisi

| Tədris fəaliyyətinin (fənnin) adı | Proqramın təlim nəticələri | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | PTN 1 | PTN 2 | PTN 3 | PTN 4 | PTN 5 | PTN 6 | PTN 7 | PTN 8 | PTN 9 | PTN 10 |
| Tədqiqat metodları | x | | | | | | | | | |
| Akademik yazı və etika | | | | | | | | | x | |
| Layihələrin idarə olunması | | | | | | | | | | x |
| İşgüzar xarici dil | | | | | | | | | x | |
| Tədqiqat analitikası | | | | | | | x | | | |
| Müasir Azərbaycan mədəniyyəti | | x | | | | | | | | |
| Mədəni antropologiya | x | | | | | | | | | |
| Ali məktəb pedaqogikası və psixologiya | | | | | | | | x | | |
| İncəsənət və süni intellekt | | | | | | | | | | x |
| Təsviri sənətin nəzəriyyəsi | | x | x | x | x | | | | x | |
| Azərbaycan sənətşünaslıq elminin inkişaf tarixi | x | x | x | | | | x | x | x | |
| Təsviri sənətdə tənqidin metodologiyası | | x | x | x | | | | | x | |
| Təsviri sənətin metodologiyası | x | x | | | | | x | | x | |
| Təsviri sənətin müasir problemləri | | x | x | x | | | x | | x | |
| Təsviri sənət əsərlərinin ekspertizası və dəyərləndirilməsi | x | | | x | | | x | | x | x |
| Türk incəsənətinin inkişaf xüsusiyyətləri | | x | x | x | | | | | | |
| Şərq miniatür tarixi | | x | x | x | | | | | | |
| Qafqaz xalqlarının incəsənəti | | x | x | x | | | | | | |
| Müasir dekorativ-tətbiqi sənətin aktual problemləri | | x | x | x | | | | | | |
| Elmi-pedaqoji təcrübə | | | | | x | | | | | |
| Elmi tədqiqat təcrübəsi | | | | | | x | | | | |
| Magistrlik dissertasiyası | | | | | | x | | | | |

**Razılaşdırıldı:**

**ADMİU-nun Tədris işləri üzrə prorektoru:** ____________ **Nigar Rüstəmova**

**ADMİU-nun Tədris şöbəsinin müdiri:** ____________ **Namiq Qafarov**

**ADMİU-nun Təsviri sənət tarixi və nəzəriyyəsi kafedrasının müdiri:** ____________ **Aslan Xəlilov**

**ADMİU-nun Rəssamlıq fakültəsinin dekanı:** ____________ **Səyalı Quliyeva**